

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 193 (21.345)

*6 oktyabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Paskal Mönyeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Ölkəmizdən və xalqımızdan xoş təəssüratla ayrıldığını deyən səfir Paskal Mönye gələcək fəaliyyəti dövründə də əlaqələrimizin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Paskal Mönyenin Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin inkişafına verdiyi töhfəni qeyd edən dövlətimizin başçısı onun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə əməkdaşlığımızın yüksək səviyyəyə qalxdığını deyib. İkitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və eləcə də Heydər Əliyev Fondunun bu istiqamətdəki fəaliyyətinin önəmini vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin geniş sahələri əhatə etməsindən və əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, texnologiya, biznes, mədəniyyət və digər sahələrdə strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluğunu ifadə edib.

Dövlətimizin başçısı səfirə gələcək fəaliyyətində uğurlar arzulayıb.

## Naxçıvanda qadınların əl işlərindən ibarət sərgi təşkil olunmuşdur





Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət-qadın siyasətinin tərkib hissəsi olaraq istedadlı qadınların fəaliyyətlərinin dəstəklənməsinə xüsusi diqqət yetirilir. Qadınların əl işlərindən ibarət sərgilərin təşkil olunması da bu tədbirlərin davamı kimi mühüm əhəmiyyət daşıyır.

Oktyabrın 5-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Muxtar respublika qadınları müstəqillik illərində" mövzusunda sərgi təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova tədbirdə çıxış edərək demişdir ki, bu gün muxtar respublika qadınları dövlət quruculuğunda, ictimai həyatda fəal iştirak edir, sosial-iqtisadi, elmi və mədəni inkişafa öz töhfələrini verirlər. Xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşadan qadınlara da xüsusi diqqət göstərilir. Gənc qızların müəyyən peşələrə yiyələnməsi, həmçinin istedad və bacarıqlarının inkişaf etdirilməsi üçün muxtar respublikada xalçaçı, keçəçi, dərzi, ağac üzərində oyma və sairə peşə kursları təşkil olunur. 2012-ci ildə "Milli dəyərlər ili" ilə əlaqədar 71 istedadlı qadının 428, 2014-cü ildə "Muxtariyyət ili" ilə əlaqədar 157 istedadlı qadının 343 rəsm və əl işi sərgi-satışlara çıxarılmışdır. Həmçinin 2014-cü ildə və bu ilin ötən dövründə 150-dən artıq istedadlı qadının 392 rəsm və əl işinin satışı təşkil olunmuşdur. Bu gün qadınların əl işlərindən ibarət növbəti sərginin keçirilməsi də qadınların istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi, Naxçıvanın qədim tarixini və müasir inkişafını ilmələrə, tablolara köçürməklə qorumaq və yaşatmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Ramilə Seyidova göstərilən diqqət və qayğıya görə muxtar respublika qadınları adından minnətdarlıq etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva çıxış edərək demişdir ki, yaradılan şəraitin nəticəsində muxtar respublikada istedadlı qadınların sayı ildən ilə artmış, onların əl işlərindən ibarət sərgilərin təşkili ənənə halını almışdır. Bu gün Naxçıvan Rəssamlar Birliyinin üzvü olan qadın rəssamlar yaradıcılıq emalatxanaları ilə təmin olunmuş, onlardan 2-si "Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı" fəxri adına layiq görülmüşdür. Bugünkü sərgidə nümayiş etdirilən rəsm əsərlərinin müəllifləri sırasında Naxçıvan Rəssamlar Birliyinin üzvü olan qadınlar da vardır. Qadın rəssamlar yaradılan şəraitdən bəhrələnərək bundan sonra da öz əsərlərində Naxçıvanın qədim tarixini və müasir inkişafını tərənnüm edəcəklər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərgidə iştirak edən qadınları təbrik etmiş, təşkilatçılara təşəkkürünü bildirərək demişdir: "Muxtar respublika qadınları müstəqillik illərində" sərgisinin milli dəyərlərimizə həsr olunması onun əhəmiyyətini daha da artırır. Hər bir xalqın milli dəyəri onun milli kimlik pasportudur. Ona görə də milli dəyərlərin qorunub-saxlanılması və yaşadılması vacib məsələdir. Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərində əsasını qoyduğu milli dəyərlərin yaşadılması, milli-mədəni irsə qayıdış siyasəti bu gün ölkəmizdə uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikasında da milli dəyərlərin yaşadılması istiqamətində ardıcıl tədbirlər görülür. Qadınların əl işlərindən ibarət sərginin təşkili də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.

Ali Məclisin Sədri demişdir: Milli dəyərlər min illər ərzində yaradılır və nəsildən-nəslə ötürülərək yaşadılır. Milli dəyərlərin əsas yaradıcıları və yaşadanlar isə qadınlardır. Ölkədə sabitlik varsa, ailə dəyərləri qorunursa, qadınlar cəmiyyətin müxtəlif sahələrində təmsil olunurlarsa, o zaman milli dəyərlər də yaşayacaqdır. Ötən əsrin 90-cı illərində ölkəmizdə baş verən hadisələr digər sahələrlə yanaşı, milli dəyərlərin də qorunub-yaşadılmasına imkan vermirdi. Bu sahə ilə məşğul olan qadınlara lazımi qayğı göstərilmirdi. Lakin bu gün ölkəmizin hərtərəfli inkişafı, mövcud sabitlik, dövlət-qadın siyasətinin uğurla həyata keçirilməsi, ailə dəyərlərinə yüksək qiymət verilməsi qadınların ölkəmizin ictimai həyatında fəal iştirakına və istedadlarının üzə çıxarılmasına imkan verir. Bu gün qadınların bütün sahələrdə fəaliyyəti təmin olunur, min illər ərzində formalaşdırılan milli dəyərlərimiz yaşadılır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən muxtar respublikada xalq yaradıcılığı günləri keçirilir. Xalq yaradıcılığı günlərinin keçirilməsində əsas məqsəd milli dəyərlərimizi yaşatmaqdan ibarətdir. Çünki milli dəyərləri yaşatmaq xalqın tarixini yaşatmaq deməkdir. Əgər hər bir xalq öz kimliyini ortaya qoymaq istəyirsə, ilk növbədə milli dəyərlərinə istinad etməlidir. Milli dəyəri olmayan xalqın keçmişi olmadığı kimi, gələcəyi də yoxdur. Gələcək keçmiş üzərində qurulur. Bu gün milli dəyərlərimizin yaşadılması da keçmişimizə hörmət və gələcəyimizə qayğı kimi mühüm bir məqsədə xidmət edir.

Ali Məclisin Sədri demişdir: Milli dəyərlərin yaşadılması sahəsində həyata keçirilən tədbirlər bundan sonra da davam etdirilməlidir. Aid dövlət təşkilatları yaradılan şəraitdən istifadə edərək fəaliyyətlərini gücləndirməli, milli dəyərlərin əsas daşıyıcıları olan qadınlar bu işdə yaxından iştirak etməlidirlər. Hər bir kəndə, rayona xas olan milli dəyərlər muxtar respublikanın, muxtar respublikada toplanan milli dəyərlər isə ümumilikdə Azərbaycan xalqının milli dəyərlər sisteminə daxildir. Ona görə də bu cür sərgilər Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayon mərkəzlərində də təşkil olunmalı, istedadlı qadınların fəaliyyətinə dəstək verilməlidir.

Ali Məclisin Sədri milli dəyərlərimizin yaşadılmasında qadınlara uğurlar arzulamış, sərgi ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, bu gün muxtar respublika qadınları xalqımıza xas adət-ənənələrin, qədim el sənətinin qorunub saxlanmasına və təbliğinə öz layiqli töhfələrini verirlər. Bunun nəticəsidir ki, sərgidə muxtar respublikada yaşayan 126 istedadlı qadının müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri və əl işlərindən ibarət 753 yaradıcılıq nümunəsi nümayiş olunur. Sulu və yağlı boya ilə işlənən tablolarla yanaşı, dekorativ, tikmə, toxuma və aplikasiyalar, taxta üzərində yandırma və oyma işləri, xalçalar, toxuculuq nümunələri, mis üzərində döymə və bir-birindən maraqlı digər dekorativ tətbiqi sənət nümunələri maraqla qarşılanmışdır.

Naxçıvan xalçaçılıq məktəbinin qədim tarixi vardır. Bu torpaqda xalqımızın qədim mədəniyyətini, məşğuliyyətini və həyat tərzini özündə əks etdirən dəyərli xalça nümunələri yaradılmış, bu sənət nəsildən-nəslə ötürülərək yaşadılmışdır. Bu gün də muxtar respublikada xalçaçılıq sənətinin inkişafına xüsusi diqqət yetirilir. Gənc qızlar tərəfindən toxunan xalçalar, hazırlanan tikmə və toxuma işləri milli dəyərlərimizi nümayiş etdirən nümunələr sırasında diqqəti cəlb edir. Sərgidə nümayiş etdirilən xalçaların üzərində milli ornamentlərin, xüsusilə də Naxçıvan abidələrinin əks olunması isə böyük maraq doğurmuşdur.

Muxtar respublikada rəssamlıq fəaliyyətinin dəstəklənməsi, yaradıcılıq emalatxanalarının istifadəyə verilməsi, rəsm əsərlərinin sərgilərinin təşkil olunması qadınların bu sahəyə marağını artırmışdır. Sərgidə rəssamlıq istedadı olan qadınların müxtəlif mövzu və janrlarda qələm, yağlı və sulu boya ilə işlənmiş maraqlı rəsm əsərləri, rəngkarlıq nümunələri nümayiş etdirilirdi. Dəri üzərində qabartma üsulu ilə hazırlanmış tətbiqi sənət əsərləri işlənmə texnikası və orijinal görünüşü ilə qadınların yüksək bədii-estetik zövqünü təcəssüm etdirir.

Xalqımıza xas milli ornamentlərin daşıyıcısı olan geyimlərin yaşadılmasına Naxçıvanda xüsusi diqqət yetirilir. Muxtar respublikada tarixən ipək və yundan müxtəlif naxışlı zərif geyimlər, baş örtükləri hazırlanaraq məişətdə geniş istifadə edilmişdir. Bu sahə ilə məşğul olan qadınların ərsəyə gətirdiyi qədim geyim nümunələri sərgidə xüsusi yer tuturdu.

Ali Məclisin Sədri sərginin xalqımızın qədim adət-ənənələrini, milli dəyərlərini əks etdirdiyini bildirmiş, sərgilərin təşkilinin bundan sonra da davam etdirilməsinin vacibliyini vurğulamış, istedadlı qadınlara texniki köməkliyin göstərilməsi, onların iştirakı ilə müvafiq yaradıcılıq dərnəklərinin açılması barədə tapşırıqlar vermişdir.

Sərgi 10 gün davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Oktyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illik yubileyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etmişlər.*

# Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illik yubileyi qeyd olunub

Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında davam etdirilən tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov açmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi işçilərinin təltif edilməsi haqqında" 2015-ci il 2 oktyabr tarixli Sərəncamını oxumuş, 90 illik yubiley münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif olunduğunu bildirmişdir.

Cəlil Rüstəmov Fəxri Fərmanı oxuyub təqdim etdikdən sonra çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında məhkəmə-hüquq sistemi böyük bir yol – təşkilatlanma mərhələsi keçmişdir. Bu inkişafın ötən əsrin 70-80-ci illərini əhatə edən mərhələsi xüsusilə əlamətdardır. Ulu öndər Heydər Əliyevin həmin dövrdə elan etdiyi "Qoy ədalət zəfər çalsın!" prinsipi cəmiyyətin digər sahələri kimi, məhkəmə-hüquq sisteminin də yeni tələblər səviyyəsində qurulmasını nəzərdə tuturdu.

Ümummilli liderimizin Azərbaycana rəhbərliyinin ikinci dövründə də ədalət mühakiməsinin təmin olunması, ali prinsip olan insan və vətəndaş hüquqlarının qorunması diqqət mərkəzində saxlanmışdır. Bu diqqətin nəticəsidir ki, məhkəmə-hüquq sistemində islahatlar keçirilmiş, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında məhkəmələrin səlahiyyətləri artırılmış və fəaliyyətlərinin müasirləşdirilməsi üçün tədbirlər görülmüşdür.

Bu gün Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi səmərəli hüquqi təsisat kimi formalaşmış, muxtar respublikanın dövlət hakimiyyəti sistemində özünəməxsus yer tutmuşdur. Ali Məhkəmə muxtar respublikada apelyasiya qaydasında ədalət mühakiməsinin və konstitusiya nəzarətinin həyata keçirilməsi, məhkəmə-hüquq sistemində aşkarlıq və operativliyin təmin edilməsi, eləcə də insan hüquq və azadlıqlarının qorunması sahəsində qarşıya qoyulan vəzifələrin icrasında mühüm rola malikdir.



Bildirilmişdir ki, muxtar respublikada bütün sahələr kimi, məhkəmələr də qayğı ilə əhatə olunmuşdur. Bu qayğının nəticəsidir ki, Ali Məhkəmə başda olmaqla, muxtar respublikanın bütün məhkəmələri üçün yeni inzibati bina tikilmiş və müasir iş şəraiti yaradılmışdır. Eyni zamanda hakimlərin və məhkəmə işçilərinin əməyinin qiymətləndirilməsi də diqqət mərkəzində saxlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 2 oktyabr tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi işçilərinin bir qrupunun təltif olunması, eləcə də Ali Məhkəmənin bütün kollektivinin mükafatlandırılması hörmətli Sədrimiz tərəfindən bu orqanın fəaliyyətinə göstərilən diqqətin daha bir ifadəsidir. Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 90 illik yubileyi münasibətilə kollektivi bir daha təbrik etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məhkəmənin yaranma tarixinə nəzər salaraq bildirmişdir ki, Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1925-ci il 3 oktyabr tarixli qanunu ilə Azərbaycan SSR Ali Məhkəməsinin Naxçıvan MSSR bölməsi yaradılmışdır. Bölmə 1934-cü ildə Naxçıvan MSSR Baş Məhkəməsi, 1937-ci ildə isə Naxçıvan MSSR Ali Məhkəməsi adlandırılmışdır.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini əldə etməsi məhkəmə quruluşunun, ədalət mühakiməsi qaydalarının köklü şəkildə dəyişdirilməsini zərurətə çevirmişdir. Lakin həmin dövrdə digər sahələr kimi, məhkəmə orqanlarının fəaliyyəti də diqqətdən kənarda saxlanılmış, bu sahədə əsaslı islahatlar həyata keçirilməmişdir. Yalnız 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra məhkəmə hakimiyyəti sistemində də köklü dəyişikliklər baş vermişdir. ***"Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır"***, – deyən ulu öndərin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi müəyyən olunmuşdur.

Vurğulanmışdır ki, ulu öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə sisteminin inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlət başçısının məhkəmə hakimiyyətinin müasirləşdirilməsinə həsr olunan 2006-cı il 19 yanvar tarixli Fərmanı məhkəmə islahatlarının növbəti mərhələyə qədəm qoymasına böyük təkan vermiş, vətəndaşların hüquq institutlarına olan tələbatının daha keyfiyyətlə təmin olunması üçün ölkəmizdə yeni apelyasiya məhkəmələri yaradılmışdır. Məhkəmə sisteminin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 15 iyul və 9 avqust tarixli fərmanları ilə regionlarda Ağır Cinayətlər və İnzibati-İqtisadi məhkəmələr yaradılmış, ölkədə fəaliyyət göstərən Apelyasiya, Ağır Cinayətlər, İnzibati-İqtisadi və Hərbi məhkəmələrin ərazi yurisdiksiyası müəyyənləşdirilmişdir.

Bildirilmişdir ki, həyata keçirilən məhkəmə-hüquq islahatları ölkəmizin digər regionları ilə yanaşı, Naxçıvan Muxtar Respublikasında da fəaliyyət göstərən məhkəmə orqanlarını əhatə etmişdir. Ölkə Prezidentinin müvafiq fərmanlarından sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Ağır Cinayətlərə dair işlər üzrə birinci instansiya kollegiyası ləğv olunaraq ağır və xüsusilə ağır cinayətlərə baxmaq səlahiyyəti yeni yaradılmış Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinə verilmişdir. Eyni zamanda Ali Məhkəmədə daha iki kollegiya – iqtisadi mübahisələrə dair işlər üzrə və hərbi məhkəmələrin işləri üzrə kollegiyalar fəaliyyətə başlamış, muxtar respublikada fəaliyyət göstərən bütün rayon (şəhər) və ixtisaslaşdırılmış məhkəmələrin hökm və qərarlarından apelyasiya şikayəti və protestlərinə baxılması səlahiyyəti Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə verilmişdir.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 noyabr tarixli Fərmanının mühüm əhəmiyyətə malik olduğunu bildirən Ramiz Süleymanov demişdir ki, fərmana əsasən, muxtar respublikanın hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlər görülmüş, məhkəmələr üçün yeni inzibati binalar tikilmişdir. Hazırda muxtar respublikanın bütün məhkəmə orqanları müasir binalarda fəaliyyət göstərir.

Ali Məhkəmənin sədri bildirmişdir ki, muxtar respublikada məhkəmə hakimiyyəti orqanlarının hakim korpuslarının formalaşdırılması zamanı ən mütərəqqi və şəffaf qaydaların tətbiq olunması, yüksək bilik və mənəvi keyfiyyətlərə malik olanların hakim seçilməsi diqqət mərkəzində saxlanılır. Ötən müddətdə Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinin məzunu olan 16 hüquqşünas muxtar respublikada fəaliyyət göstərən məhkəmələrə hakim vəzifələrinə təyin edilmişdir. Bundan başqa, peşəkarlıq və hüquqi hazırlıq nümayiş etdirən 4 hakim Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə, 5 hakim məhkəmə sədri vəzifəsinə irəli çəkilmiş, habelə 1 hakim Məhkəmə-Hüquq Şurasının, 1 hakim isə Hakimlərin Seçki Komitəsinin üzvü seçilmişdir. Əvvəllər muxtar respublikanın məhkəmə orqanlarında fəaliyyət göstərmiş 3 hakim hazırda Azərbaycan Respublikası Ali Məhkəməsində, 6 hakim isə ölkəmizin digər regionlarının müxtəlif məhkəmə orqanlarında hakimlik fəaliyyətlərini davam etdirirlər.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivi bundan sonra da muxtar respublikada ədalət mühakiməsinin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli fəaliyyət göstərəcək, bu sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri İlham Cəfərov və İslam Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təqaüddə olan hakimi Şamxal Hüseynov, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Qabil Məmmədov, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri Qasım Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Aparatının şöbə müdiri Mehdi Əliyev çıxış edərək məhkəmə orqanlarına göstərilən dövlət qayğısından danışmış, kollektivi 90 illik yubiley münasibətilə təbrik etmişlər.

Sonda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təltif olunmuş Seyidova Xasa Seyidəli qızına "Rəşadətli əməyə görə" nişanı təqdim olunmuş, Ali Məhkəmənin bir qrup işçisinə qiymətli hədiyyələr verilmişdir.

***2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində müşavirə keçirilib.***

# Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə edilib

Müşavirəni giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev açaraq nazirlik tərəfindən payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələrdən danışıb. Bildirilib ki, payız-qış mövsümünə hazırlıqla bağlı artıq bir neçə ildir, qazanılan təcrübə qışa hazırlığı vaxtında yerinə yetirməyə, mövsümü təhlükəsiz şəkildə başa vurmağa imkan yaradır. Nazirliyin balansında olan inzibati binaların qızdırılması üçün məhkəmələr üzrə 10, tabe qurumlar üzrə 9 qazanxana, 2 kombi sistemi quraşdırılıb. Bütövlükdə, quraşdırılan 19 qazanxana və 2 kombi istilik sistemi yenidir. Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrində su qızdırıcıları yenilənib və relyefə dözümlü avadanlıqlarla əvəz olunub.

Payız-qış mövsümünə hazırlıqla bağlı görüləcək işlər barədə danışan nazir qeyd edib ki, cəzaçəkmə müəssisələrinin bütün tələbatları nəzərə alınaraq məhkumların isti geyim və ərzaqla təminatı sahəsində ehtiyac üzrə sifarişlər verilərək təyinatı üzrə istifadəsi diqqət mərkəzində saxlanılmalıdır. Şəxsi heyətin qış mövsümü ilə bağlı geyim dəstləri ilə təminatına önəm verilməli, onların vaxtında xidmət yerinə gedib-qayıtması üçün avtobus saz vəziyyətdə olmalıdır. Nazirliyin, Penitensiar Xidmətin cəzaçəkmə müəssisələrinin inzibati binalarının istiliklə fasiləsiz təmin edilməsi üçün tədbirlər həyata keçirilməlidir. Qazanxanaların təlim keçmiş və bu barədə sertifikat almış əməkdaşlar tərəfindən istismar edilməsinə diqqət yetirilməlidir. Nazirliyin balansına daxil olan bütün avtomaşınların sazlığı yoxlanılmalı, texniki cəhətdən qışa hazırlıq ən yüksək səviyyədə həyata keçirilməlidir. Qazdan və elektrik enerjisindən səmərəli istifadə olunmalı, qış mövsümünə uyğun ərzaq məhsullarının tədarükü təmin edilməli, yerli məhsullara üstünlük verilməlidir.



Tədbirdə Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini – Penitensiar Xidmətin rəisi, ədliyyə polkovniki Şahin Təhməzov çıxış edərək bildirib ki, 15 inzibati və yardımçı binadan ibarət olan, sahəsi 25 hektara yaxın penitensiar müəssisələr kompleksində qazanxanaların fasiləsiz işləməsi, məhkumların isti geyimlə, keyfiyyətli ərzaqla təmin olunması, o cümlədən onların sağlamlığının qorunması istiqamətində bu günədək bir sıra işlər görülüb, bu sahədə tədbirlər davam etdirilməkdədir. Müəssisələrin istilik sistemini, ümumilikdə, 4 ədəd qazanxana təmin edir. Qazanxanaların işlədilməsi üçün qazanxana maşinisti kurslarını bitirmiş əməkdaşlardan və məhkumlardan istifadə olunur. Qazanxanaların, su nasoslarının, istilik xətlərinin daim saz vəziyyətdə olması üçün lazımi işlər görülüb. Bu il yataqxana və kameralarda, eləcə də tibbi-sanitar hissənin yoluxucu bölməsində, bütün rejim korpuslarında, klublarda, yeməkxanalarda cari təmir işləri aparılıb. Yanacaq ehtiyatı yaratmaq məqsədilə əlavə olaraq 4000 litr dizel yanacağı alınaraq çənlərə doldurulub, yay mövsümü ərzində işlədilmiş qaz balonlarının yenidən doldurulması təmin olunub. Qış vaxtı yolların bağlanma ehtimalı nəzərə alınaraq anbarlarda quru çörəyin – lavaşın tədarük olunması oktyabr-noyabr aylarının ərzaq sifarişi cədvəlinə salınıb. Məhkumların qış mövsümündə keyfiyyətli ərzaqla, isti geyim dəstləri ilə təmin olunması istiqamətində tədbirlər davam etdirilir. Ərzaqların payız-qış mövsümünə uyğunlaşdırılması, əsasən yerli məhsullardan istifadə olunması ilə əlaqədar "Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti ilə müqavilə bağlanıb.

Müşavirədə Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin rəisi, ədliyyə polkovnik-leytenantı Qəzənfər Mahmudovun, 8 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinin rəisi vəzifəsini müvəqqəti icra edən, ədliyyə polkovnik-leytenantı Möhbalı Tağıyevin çıxışları olub, Mühafizə Taqımının komandiri Rəşad Cəlilovun, İstintaq Təcridxanasının rəisi Mahir Hümbətovun hesabatları dinlənilib. Nazirliyin Təşkilat-nəzarət şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Emin Səfərov payız-qış mövsümü ilə əlaqədar nazirliyin tədbirlər planı ilə tədbir iştirakçılarını tanış edib.

Tədbirə Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev yekun vurub.

**Xəbərlər şöbəsi**

# Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbirlər keçirilib



*5 oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ulu öndərimizin məktəbin ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyublar.*

Tədbiri giriş sözü ilə məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Namiq Məmmədov açaraq müəllimləri təbrik edib, onlara işlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Məmməd Qəribov çıxış edərək muxtar respublikada müəllimlərə göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, muxtar respublikada bu sahəni daim irəli aparan, öz peşəsini dərindən sevən peşəkar müəllim ordusu formalaşdırılıb. Cəmiyyətin maariflənməsi, bilikli, vətənpərvər, çalışqan və sağlam gəncliyin yetişdirilməsi yolunda yorulmadan çalışan muxtar respublika müəllimlərinin əməyi layiqincə qiymətləndirilir, onların sosial vəziyyətlərinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 22 iyun tarixli “Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində çalışan bilik və bacarıqlarının qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında” Sərəncamı bu istiqamətdə atılan növbəti mühüm addımdır. Bu sərəncam muxtar respublika müəllimlərinin böyük sevincinə səbəb olub, onların işə məsuliyyətini daha da artırıb.

Naxçıvan Dövlət Universitetinin tədris işləri üzrə prorektoru, dosent Surə Seyid çıxış edərək universitetdə müəllim hazırlığının bugünkü vəziyyətindən, Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda təhsilin inkişafı istiqamətində görülən işlərdən danışıb. O, Heydər Əliyev adına tam orta məktəb ilə Naxçıvan Dövlət Universiteti arasındakı əməkdaşlıqdan da söhbət açaraq deyib ki, universitet tələbələrinin pedaqoji təcrübələrinin planlaşdırılması bu məktəblə də aparılır. “Naxçıvan Dövlət Universiteti ilə olan əlaqələrin nəticəsidir ki, hər il bu məktəbdən universitetimizə qəbul olunan tələbələrin sayı artmaqdadır”, – deyən prorektor əlavə edib ki, universitetin məzunları hazırda bu məktəbdə müəllim kimi fəaliyyətlərini davam etdirirlər.

Heydər Əliyev adına tam orta məktəbin müəllimi Gülşən Fətullayeva müəllimlərə göstərilən qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Naxçıvan Dövlət Universitetinin tələbəsi Xeyrənsə Səfərova çıxış edərək bildirib ki, bir ildən sonra o da müəllim kimi fəaliyyətə başlayacaq. Qeyd edib ki, keçirilən təhsil yarmarkaları gənc müəllimlərin məşğulluğunu təmin edir, yüzlərlə gənc müəllim muxtar respublikanın ümumtəhsil məktəblərində işlə təmin olunur.

Sonda dahi rəhbərin adını daşıyan orta məktəbin bir qrup müəllimi pedaqoji fəaliyyətindəki uğurlara görə Fəxri Fərmanla təltif olunub, təhsil ocağının şagirdləri müəllimə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

*“Naxçıvan” Universitetində Beynəlxalq Müəllimlər Günü konsert proqramı ilə qeyd olunmuşdur.*

Tədbirin aparıcıları bildirmişlər ki, müəllimlik yüksək bir zirvədir. Müəllimlər millətin xilas yolunu, intibahını haqlı olaraq elm və təhsildə görür, çoxlarının bəhrələnəcəyi maarifçilik irsi və bütöv bir məktəb yaradırlar. Ona görə də müəllimlər cəmiyyətin ən nüfuzlu, ən mötəbər insanlarıdır. Xalqımızın böyük oğlu Heydər Əliyev həmişə milli təhsilimizin müasir tələblər səviyyəsində qurulmasına diqqətlə yanaşırdı. Dahi rəhbərin təhsil siyasətinin uğurlu bəhrələridir ki, milli təhsilimizin məzmunca təkmilləşdirilməsi, müasir dünya təcrübəsi və milli ənənələr əsasında inkişafı təmin edilmiş, Azərbaycançılıq ideologiyasını özündə əks etdirən tədris proqramları, çoxsaylı dərsliklər hazırlanmış, ayrı-ayrı sahələr və fənlər üzrə yeni standartlar tətbiq edilmişdir. ***“Mən müəllim adından yüksək ad tanımıram”***, – deyən ulu öndər aradan uzun illər keçməsinə baxmayaraq, ona dərs deyən müəllimlərin adlarını, soyadlarını hər zaman xatırlamış, onlar haqqında səmimiyyətlə danışmış, hörmət və ehtiramını bildirmişdir. Ölkə başçısı cənab İlham Əliyevin milli elm və təhsilin inkişafı problemlərinin həlli istiqamətində həyata keçirdiyi siyasət də məhz ulu öndərin formalaşdırdığı mütərəqqi ənənələrin davamıdır.



Aparıcılar onu da vurğulamışlar ki, müəllim əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. 2007-ci ildən bu günədək muxtar respublikada 35 müəllimin “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi olması bunun əyani ifadəsidir. Həmçinin müəllimlərdən 65-i “Azərbaycan Respublikasının Əməkdar müəllimi”, 83-ü “Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi” fəxri adlarına layiq görülmüş, 60 müəllim “Tərəqqi” medalı ilə təltif edilmişdir.

Tədbirin bədii hissəsində universitet haqqında video-çarx nümayiş etdirilmiş, İdarəetmə fakültəsi tələbələrinin ifasında vətənimizə həsr olunmuş mahnı və musiqilər səsləndirilmişdir.

Tədbirə universitetin rektoru, professor İsmayıl Əliyev yekun vurmuşdur.

# Xalq yaradıcılığı günləri milli dəyərlərimizin təbliği baxımından mühüm əhəmiyyət kəsb edir

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Kəngərli rayonunun Çalxanqala kəndində xalq yaradıcılığı günü keçirilib.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Həsən Kərimov çıxış edərək Azərbaycan mədəniyyətinin inkişafında və təşəkkül tapmasında müstəqil Azərbaycanın qurucusu və memarı, ulu öndər Heydər Əliyevin böyük xidmətlər göstərdiyini, xalqımızın malik olduğu milli-mənəvi dəyərlərə daim həssaslıqla yanaşdığını bildirdi.

Qeyd edildi ki, ulu öndərin bu istiqamətdə həyata keçirdiyi siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Mədəniyyət və turizm sahələrinə dair 250-dən çox fərman və sərəncamların imzalanması bunun bariz göstəricisidir.

Həsən Kərimov bu gün Kəngərli rayonunda da mədəniyyətin və incəsənətin inkişafına diqqət və qayğı göstərildiyini bildirdi.

Qeyd edildi ki, son illər rayonda mədəniyyət müəssisələri, uşaq musiqi məktəbləri, kitabxanalar üçün yeni binalar tikilib istifadəyə verilib, tarix və mədəniyyət abidələri təmir və bərpa olunub. Bu gün Kəngərli rayonu mədəniyyətimizin inkişafına öz töhfəsini verir. Rayonda fəaliyyət göstərən folklor kollektivləri öz repertuarlarını ayrı-ayrı folklor nümunələri ilə zənginləşdirirlər. Keçirilən tədbirlərdə rayon Mədəniyyət Evinin uşaqlardan ibarət yallı qrupu, Çalxanqala Kənd Uşaq musiqi məktəbinin “Sazçalan qızlar” ansamblı və qızlardan ibarət “Gülümhey” folklor qrupu fəal iştirak edir.

Vurğulandı ki, bu gün keçirilən xalq yaradıcılığı günü mədəniyyətimizin təbliği baxımından əhəmiyyət kəsb etməklə yanaşı, həm də Kəngərli rayonunun bu sahədə imkanlarının nümayiş etdirilməsinə şərait yaradır.

Sonra konsert proqramı oldu.

Kəngərli Rayon Mədəniyyət Evinin özfəaliyyət kollektivləri üzvlərinin ifasında xalq və bəstəkar mahnıları, Naxçıvan Dövlət Filarmoniyasının rəqqaslarının ifasında milli rəqslərimiz tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

* * *



*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Sədərək rayonunda da xalq yaradıcılığı günü keçirilib.*

Heydərabad qəsəbəsində keçirilən tədbiri giriş sözü ilə rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Rəşad İsmayılov açaraq bir neçə ildir, muxtar respublikada keçirilən xalq yaradıcılığı günlərinin əhəmiyyətindən danışıb.

Sonra Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Nizami Əzizəliyev çıxış edib. Bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 7 fevral 2009-cu il tarixli Sərəncamına əsasən, muxtar respublikada milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Belə tədbirlər unudulmaqda olan milli-mənəvi dəyərlərin yenidən xalqımıza qaytarılmasında mühüm rol oynayır.

Vurğulanıb ki, xalq yaradıcılığının, əsrlərboyu yaranan mənəvi və maddi-mədəniyyət nümunələrinin öyrənilməsi, ənənəvi sənət sahələrinin dirçəldilməsi, onların geniş şəkildə tətbiq və təbliğ olunması mühüm əhəmiyyət kəsb edir. Ötən müddət ərzində muxtar respublikamızda xalq yaradıcılığının inkişafı və qorunub saxlanması istiqamətində bir sıra işlər görülüb, folklor kollektivlərinin və xalq teatrlarının fəaliyyəti gücləndirilib, onlar milli geyim dəstləri ilə təmin ediliblər.

Tədbirdə Sədərək rayon, Heydərabad qəsəbəsi, Sədərək və Qaraağac kənd mədəniyyət evlərinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər. Folklor ansambllarının ifasında qədim xalq rəqsləri ifa edilib, xalq oyun və tamaşaları göstərilib, qədim milli musiqi alətlərimiz olan balabanda, zurnada, tütəkdə, sazda musiqi nömrələri səsləndirilib. Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyində saxlanılan ənənəvi el sənəti nümunələri nümayiş etdirilib.

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə görüş keçirilib.*

# Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə görüş



Görüşdə xidmətin əməkdaşı Rahib Kərimov iştirakçılara əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti, onların hüquq və azadlıqları, əməkçi miqrantların hüquqları, onların vəzifələri və məsuliyyəti haqqda məlumat verib. O deyib ki, Azərbaycan Respublikası ərazisində olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının Konstitusiyası və Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına müvafiq olaraq şəxsi toxunulmazlıq və mənzil toxunulmazlığı hüquqları vardır. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş qaydada tutulmuş, yaxud həbs olunmuş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə bu hərəkətlərə səbəb olan hallar və onların hüquqları haqqında dərhal məlumat verilməlidir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının ərazisində hərəkət edə və yaşayış yeri seçə bilərlər.

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin diqqətinə çatdırılıb ki, hərəkət etməyə və yaşayış yeri seçməyə məhdudiyyətlərə ancaq Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada yol verilir. Azərbaycan Respublikasının qanunvericiliyi və Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq müqavilələr ilə digər qaydalar müəyyən olunmayıbsa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər əmək münasibətlərində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquqlardan istifadə edir, eyni vəzifələri daşıyırlar. Azərbaycan Respublikasına müəyyən müddət əmək fəaliyyəti ilə məşğul olmaq üçün gəlmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər əmək fəaliyyəti ilə müəyyən olunmuş qaydada məşğul ola bilərlər. Müəyyən vəzifələr tutmaq, yaxud müəyyən fəaliyyət növləri ilə məşğul olmaq Azərbaycan Respublikası vətəndaşlığı ilə şərtləndirildiyi hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər belə vəzifələr tuta və belə fəaliyyətlə məşğul ola bilməzlər.

Tədbirdə slaydlar vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə onların toxunulmazlıq, Azərbaycan Respublikası ərazisində hərəkət etmək və yaşayış yeri seçmək, əmək, investisiya və sahibkarlıq fəaliyyəti, nikah və ailə münasibətləri, istirahət, sağlamlığın qorunması, sosial təminat, mənzil hüququ, vicdan azadlığı, təhsil hüququ, ictimai birliklərdə iştirak etmək hüququ və digər hüquq və vəzifələr haqda ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Sonda görüş iştirakçılarına “Naxçıvan 2003-2013: hədəflər, inkişaf, nəticələr” kitabı paylanıb.

# Maarifləndirici tədbir

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun şöbələri tərəfindən “Məcburi dövlət sosial sığorta haqları, sığorta-pensiya sisteminin mahiyyəti, sosial sığorta sistemində fərdi uçotun təşkili, əmək pensiyalarının təyinatı və ödənişi sahəsində elektron xidmətlərin tətbiqi” mövzusunda maarifləndirici tədbirlərin keçirilməsi davam etdirilir. Növbəti maarifləndirici tədbir oktyabrın 5-də Ordubad Rayon Şöbəsi tərəfindən rayonun Aşağı Əylis kəndində keçirilmişdir. Tədbiri Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İsmayıl Quliyev açaraq tədbirin əhəmiyyətindən danışmışdır.

Tədbirdə Dövlət Sosial Müdafiə Fondunun Ordubad Rayon Şöbəsinin müdiri Bayram Yusifov çıxış edərək sosial sığortahaqqı ödənişlərinin gələcək pensiya təminatındakı mühüm əhəmiyyətindən danışmışdır.

Diqqətə çatdırılmışdır ki, Dövlət Sosial Müdafiə Fondu tərəfindən təqdim olunmuş 20 elektron xidmətdən istifadəyə verilmiş 10 elektron xidmətin sayı 2015-ci ilin sentyabr ayından etibarən 13-ə çatdırılmışdır. Yeni elektron xidmətlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilmiş, onları maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

Parlament seçkiləri – 2015

# Seçki marafonu

## *1 noyabr 2015-ci il Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür*

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.**

**Qeydə alınmış namizədlərin bərabərliyi**

**Qeydə alınmış bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər vəzifələr daşıyırlar.**

Dövlət orqanlarında işləyən və ya bələdiyyə qulluğunda olan, həmçinin kütləvi informasiya vasitələrində əmək və mülki hüquq müqavilələri əsasında işləyən qeydə alınmış namizədlər seçki kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad olunurlar (bu qayda Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına şamil edilmir), müvafiq əmrin (sərəncamın) təsdiq edilmiş surətini qeydiyyat günündən ən geci 3 gün ərzində onları qeydə almış seçki komissiyasına təqdim edirlər.

**D İ Q Q Ə T**

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə namizədliklərin irəli sürülməsi Seçki Məcəlləsinin 58.1-ci maddəsinə və Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına müvafiq olaraq oktyabr ayının 2-si, saat 18⁰⁰-də başa çatıb.**

* * *

**Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə namizədliklərin irəli sürülməsi "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 54.1-ci maddəsinə və Ali Məclisə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planına müvafiq olaraq oktyabr ayının 7-si, saat 18⁰⁰-də başa çatır.**

**Dövlət və bələdiyyə vəzifələrində olan qeydə alınmış namizədlər vəzifə mövqelərindən üstünlük əldə etmək üçün istifadə edə bilməzlər.**

Vəzifə və xidməti mövqedən üstünlük əldə etmək məqsədilə istifadə olunması nəticəsində bərabərlik prinsiplərinin pozulması halları Seçki Məcəlləsinin 55.2-ci və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 51.2-ci maddəsi ilə müəyyənləşdirilir.

**Dövlət və ya bələdiyyə vəzifələrində olan qeydə alınmış namizədlərin yalnız öz vəzifələrini icra etməkdən azad olunduğu vaxtda seçkiqabağı təşviqat aparmaq hüququ vardır.**

Vəzifəli şəxslər, teleradio verilişləri və kütləvi informasiya vasitələri redaksiyalarında işləyən jurnalistlər və yaradıcı işçilər qeydə alınmış namizəddirlərsə, yaxud qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri və ya səlahiyyətli nümayəndələridirlərsə, seçkilərin gedişinin kütləvi informasiya vasitələri ilə işıqlandırılmasında iştirak etmək onlara qadağan edilir.

**Yuxarıda qeyd edilən məhdudiyyətlərə əməl edilməsi Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına seçicilər qarşısında səlahiyyətlərini və vəzifələrini yerinə yetirməkdə mane olmamalıdır.**

● Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri və səlahiyyətli nümayəndələri xeyriyyə fəaliyyəti ilə məşğul ola bilməzlər.

● Göstərilən şəxslərin seçicilərə maddi, maliyyə, yaxud digər xidmətlər göstərmək təklifi ilə müraciət etməsi qadağandır.

● Namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin adından və onların müdafiəsi üçün fiziki və hüquqi şəxslərin xeyriyyə fəaliyyəti ilə məşğul olması qadağandır.

**Qeydə alınmış namizədin fəaliyyətinin təminatları**

● Qeydə alınmış namizədin işlədiyi, qulluq etdiyi, oxuduğu, hərbi xidmətdə olduğu və ya hərbi xidmət keçdiyi dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının müdiriyyəti, hərbi hissənin komandiri müvafiq seçki komissiyasında namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək ərizəsində və ya raportunda göstərilən müddət üçün onu işdən, tədrisdən, xidmətdən ödənilməyən məzuniyyət verilməsi əsasında istənilən gün və vaxt azad etməlidir.

● Qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının onların vəzifəli şəxslərinin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla bilməz və ya razılığı olmadan başqa işə, başqa yerdə işləməyə (oxumağa, xidmət keçməyə) keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz, hərbi xidmətə və ya toplanışa çağırıla bilməz. Qeydə alınmış namizədin seçkilərdə iştirakı müddəti qeydə alındığı gündən başlayaraq, işlədiyi ixtisas üzrə əmək stajına daxil edilir.

● Qeydə alınmış namizəd həmin müddətdə müvafiq prokurorun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz.

**Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə, müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı seçki komissiyasını bu barədə dərhal xəbərdar edir.**

● Qeydə alınmış namizəd, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasından hüdudları, ünvanı və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını ala bilər.

● Qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının seçki komissiyasının hərəkəti (hərəkətsizliyi) nəticəsində ona dəymiş zərərin ödənilməsi məqsədilə ilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət edə bilər.

**Qeydə alınmış namizədin seçkilərdə iştirakının şərtləri**

**Seçkilərdə iştirak edən qeydə alınmış namizəd Azərbaycan Respublikası Seçki Məcəlləsinin 2.6-cı və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 2.4-cü maddəsində göstərilən şərtlərlə yanaşı, aşağıdakı şərtlərə riayət etməlidir:**

● qeydə alınmış digər namizədlərin seçki kampaniyası zamanı öz siyasi ideyalarını və baxışlarını azad və sərbəst yaymaq hüququna hörmət bəsləmək;

● qeydə alınmış digər namizədlərin, siyasi partiyaların, seçicilərin və ictimai təşkilatların hüquqlarına hörmət bəsləmək;

● seçicilərlə azad ünsiyyətin yaradılmasında qeydə alınmış digər namizədlərə mane olmamaq.

**Namizədin namizədlik statusundan imtina etməsi**

İrəli sürülmüş namizəd müvafiq seçki komissiyasını yazılı şəkildə xəbərdar edərək, namizəd olmağa razılığı barədə ərizəsini istənilən vaxt geri götürə bilər. Bu cür yazılı xəbərdarlıq geri götürülmür.

Qeydə alınmış namizəd səsvermə gününə azı 10 gün qalmış müvafiq seçki komissiyasına yazılı ərizə verərək namizədliyini geri götürə bilər. Belə ərizə geri götürülə bilməz. Daxil olmuş ərizə əsasında müvafiq seçki komissiyası ərizə vermiş namizədin qeydiyyatının ləğvi barədə bir gün müddətində qərar qəbul edir.

Qeydə alınmış namizədin öz namizədliyini geri götürməsinə məcburedici əsas, habelə siyasi partiyanın, siyasi partiyalar blokunun qeydə alınmış namizədini geri çağırmasına məcburedici əsas dedikdə qeydə alınmış namizədin məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilərək Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan müvafiq tibbi ekspertiza orqanı tərəfindən təsdiqlənmiş ağır xəstəliyi və ya iştirakını mümkünsüz edən səbəblər nəticəsində namizədin seçki kampaniyası dövründə sağlamlığının pozulması başa düşülür.

Namizədin öz namizədliyini geri götürməsi haqqında məlumat mərkəzi, dairə və məntəqə seçki komissiyalarının Azərbaycan Respublikası Seçki Məcəlləsinin 98.3-cü və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 85.3-cü maddəsində nəzərdə tutulan məlumat lövhələrində yerləşdirilir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası***

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsindən aldığımız məlumata görə, cari təsərrüfat ilini uğurla başa vuran muxtar respublika taxılçıları 2016-cı ilin bol məhsulunun əsasını qoymaq

## Şum qaldırılması və taxıl əkini davam etdirilir

üçün hazırlıq işlərini sürətlə davam etdirirlər. Şum qaldırılması, səpin aparılması, əkilmiş zəmilərin suvarılması bu gün onların başlıca qayğılarıdır. Aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə başa çatdırmaq üçün taxılçılar yaradılmış şəraitdən səmərəli istifadə etməyə çalışırlar. Oktyabrın 1-nə muxtar respublika üzrə 12 min 563 hektar sahədə şum qaldırılması başa çatdırılıb. 2252 hektar sahədə taxıl əkini keçirilib.

Komitədən aldığımız məlumata görə, sahələrə kifayət qədər şum texnikaları çıxarılıb, ehtiyat hissələri və yanacaq tədarükü görülüb. Taxılçıların yüksək kondisiyalı və yerli şəraitə uyğunlaşdırılmış toxumlardan istifadəsi diqqət mərkəzində saxlanılıb. Bu isə belə deməyə əsas verir ki, növbəti mövsümdə də taxılçıların çəkdikləri zəhmət hədər getməyəcək.

## Tarla seminar-müşavirəsi keçirilib

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyində "Payızlıq taxıl əkinlərinin optimal müddətdə həyata keçirilməsi" mövzusunda tarla seminar-müşavirəsi keçirilib.

Müşavirəni giriş sözü ilə "Araz" Elm-İstehsalat Birliyinin baş direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Bəhruz Bayramov açaraq aqrar sahəyə göstərilən dövlət qayğısı, kənd təsərrüfatının dinamik inkişafı və taxılçılıqda əldə olunan nailiyyətlərdən danışıb.

Aqrar sektorda əhəmiyyətinə görə əvəzsiz sahə olan taxılçılıqda yüksək məhsuldarlığa nail olunması yolları, eləcə də bu günün tələblərinə cavab verəcək texnologiyaların tətbiqinə dair nazirliyin əməkdaşları Zərrab Əfəndiyev, Sabir Səfərov, Həsən Əmrahov müşavirə iştirakçılarına geniş məlumat veriblər. Müşavirədə Babək rayonu və Naxçıvan şəhərinin torpaq mülkiyyətçiləri, sahibkarlar iştirak ediblər. Taxılçılıqla bağlı suallar mütəxəssislər tərəfindən ətraflı cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi

### *dövlət vergi orqanlarına işə qəbul olmaq istəyən vətəndaşlar üçün müsabiqə elan edir*

Dövlət vergi orqanlarına xidmətə qəbul "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"yə və "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"yə müvafiq olaraq aparılır.

Müsabiqəyə sənəd qəbulu 12.10.2015-ci il tarixdən 12.11.2015-ci il tarixədək aparılır. İştirak etmək istəyənlər aşağıdakı sənədləri nazirlikdə yaradılmış komissiyaya təqdim etməlidirlər:

*1. Vergilər Nazirliyi tərəfindən müəyyən olunmuş formada ərizə (blank Vergilər Nazirliyi tərəfindən verilir)*
*2. 3x4 santimetr ölçüdə 2 ədəd (ağ fonda) fotoşəkil*
*3. Ali təhsil barədə diplom (xarici ölkədə təhsil almış namizədlərin diplomları qanuna müvafiq qaydada notarifikasiya olunmalıdır)*
*4. Əmək kitabçasının əsli və ya təsdiq olunmuş surəti (son iş yeri barədə qeydin olması şərti ilə)*
*5. Şəxsiyyət vəsiqəsi*
*6. Hərbi bilet.*

Sənəd qəbulu zamanı əyani şöbədə ali təhsil alan, hərbi xidmətdə olmayan, ali təhsilə malik olmayan, yaşı 35-i keçmiş, məhdud fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab edilən və üzərindən məhkumluğu götürülməyən və ya ödənilməyən vətəndaşların sənədləri qəbul edilmir. Müsabiqədə yalnız hərbi xidmətə tam yararlı (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla), iqtisadiyyat, hüquq və beynəlxalq iqtisadi münasibətlər üzrə ixtisas sahələrindən birinə malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqəni müvəffəqiyyətlə keçmiş namizədlərə yalnız aşağıda göstərilən 34 sayda vakant yer üzrə iş təklif ediləcəkdir.

*1. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi – 15 yer*
*2. Naxçıvan Şəhər Vergilər İdarəsi – 1 yer*
*3. Şərur Rayon Vergilər Şöbəsi – 1 yer*
*4. Babək Rayon Vergilər Şöbəsi – 3 yer*
*5. Ordubad Rayon Vergilər Şöbəsi – 4 yer*
*6. Kəngərli Rayon Vergilər Şöbəsi – 4 yer*
*7. Şahbuz Rayon Vergilər Şöbəsi – 4 yer*
*8. Sədərək Rayon Vergilər Şöbəsi – 2 yer*

***Qeyd:*** Müsabiqəni müvəffəqiyyətlə keçmiş hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olan namizədlər fəaliyyətləri ləğv olunmadan işlə təmin olunmurlar.

Namizəd ona təklif olunan vəzifədən imtina edərsə, Vergilər Nazirliyinin kadr ehtiyatından çıxarılacaq.

Boş yerlərin sayı müsabiqənin sonuna qədər dəyişə bilər.

***Əlaqə telefonu: 544-72-97***

***İtmişdir***

Əsədov Xalıqverdi Fəxrəddin oğlunun adına verilmiş hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

* * *

Mukimov Kadır Kakal oğlunun adına verilmiş hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Əliabad qəsəbəsi, döngə 6, ev 1D-də yaşayan Bayramov Rasim Bayram oğlunun adına olan 15881 inventar nömrəli texniki pasport və 20 iyun 2013-cü il tarixdə verilmiş 0031316 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 744